# Baharın ayaq səsi

**Azərbaycan xalqının böyük hikmət, dərin məna daşıyan qədimdən qədim olan bayramları var. Xalq bu bayramları heç vaxt unutmur, onların tarixini gənc nəsillərə dərindən öyrədir. Xalqımızın min illərdən bəri yaddaşında yaşatdığı, təntənə ilə qeyd etdiyi bayramlardan biri də Xıdır Nəbi bayramıdır.**

İnsanların böyük maraq göstərdiyi bu bayram demək olar ki, ölkəmizin bütün bölgələrində keçirilir. Xıdır Nəbi adətən təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. ilə müşayiət olunur. Uzun illərdən bəri aparılmış geniş tədqiqatlarda Xıdır Nəbinin bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" olduğu bildirilir.

Midrik xalqımız tarixboyu milli adət-ənənələrinə sadiq qalmışdır. Hətta ən çətin zamanlarda belə ulu keçmişinə, milli dəyərlərinə sahib çıxmışdır. Əsrlərin dərinliklərindən süzülüb gələn bu bayramların, adət-ənənələrin özünəməxsusluğunu, ilkinliyini qoruyub saxlamağı bacarmışdır.

Rus tədqiqatçısı T.F.Aristova Laçın, Qubadlı və Zəngilan rayonlarında bu bayramın qeydedilmə prosesləri barədə maraqlı məlumatlar verib. Tanınmış tədqiqatçı yazırdı ki, qışın ortalarında keçirilən bu bayramda azərbaycanlı qadınlar ailəsinin salamatlığı üçün sacda buğda qovurar, çay və bulaq kənarında müxtəlif rəngli bir neçə yumurta qoyaraq niyyət edirdilər. Ertəsi gün yumurtalara baxırdılar. Əgər yumurta qırmızı rəngə boyanmışdırsa, yaxşı, qara rəngə boyanırdısa, pis əlamət kimi yozurdular.

Aparılan geniş tədqiqatlarda Xıdır Nəbi bayramının Novruz bayramından əvvəl keçirildiyi qeyd olunur. Bayramın keçirilməsi kiçik çilləyə təsadüf edir. Bəzi mənbələrdə həmin bayramın kiçik çillənin qurtarmasına 2-5 gün qalmış, bəzilərində həmin mərasimin kiçik çillənin onuncu günündə, bəzilərində isə böyük çillədən dörd və kiçik çillədən üç gün olmaqla yeddi gün ərizində keçirildiyinə təsadüf olunur.

Görkəmli yazıçımız Əzizə Cəfərzadə isə Xıdır Nəbi mərasiminin kiçik çillənin qurtardığı son üç gündə keçirildiyini göstərir. Başqa bir mənbədə isə Xıdır Nəbi bayramının fevralın 12-dən 20-dək keçirildiyi qeyd olunur.

Xoşbəxtlik, ruzi, arzuların simvolu olaraq qeyd olunan bayramın kiçik çillənin çıxması münasibətilə keçirilməsi həm də qədim əkinçiliklə sıx bağlıdır. Xalq arasında belə inam vardır ki, əgər Xıdır Nəbi Boz atında gələrkən evlərdə bayram əhvali-ruhiyyəsi görməzsə, küsüb gedirdi. Buna görə də insanlar hələ kiçik çillənin birinci günündən bayram tədarükü görməyə başlayırdılar.



Xıdır Nəbi mərasimi ilə bağlı xalq arasında zaman-zaman folklor mətnləri də yaranmışdır. Həmin mətnlər bu günümüzədək qorunub saxlanılmışdır. Diqqət yetirdikcə bu mətnlərin daha çox çağırış xarakteri daşıdığını görürük:

*Xıdır, Xıdır xıd gətir,*
*Dağ-dərədən od gətir.*
*Mən Xıdırın nəyiyəm,*
*Bircə belə dayıyam,*
*Ayağının nalıyam,*
*Başının torbasıyam.*
*Xıdıra Xıdır deyəllər,*
*Xıdıra çıraq qoyallar,*
*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək, oldu yaz.*
*Mən Xıdırın quluyam,*
*Boz atının çuluyam...*

Xıdır Nəbi bayramı fevralın 10-dan 11-nə keçən gecədən qeyd edilir. Elə həmin andan yazın müjdəçisi olan "Xızır" gecələri başlayır. Deyilənə görə, bu gecə Xızır peyğəmbərin adı ilə bağlıdır və yazın gəlişinin ilk müjdəçisidir. "Xızır Nəbi gecəsi"ni insanlar təmtəraqla, xüsusi mərasimlərlə keçirirlər. Xalqımız bu tarixi ənənəni daim yaşadır və təntənə ilə qeyd edir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 11 fevral (№ 26).- S.11.